# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ARASINDA FÖVQƏLADƏ HALLARA HAZIRLIQ və REAKSİYAETMƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA

# M E M O R A N D U M U

**Bakı şəhəri**

## Giriş:

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi bundan sonra - «Tərəflər» adlandırılacaq.**

⇒ Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz nizamnaməsinə, Qızıl Xaç və Qızıl Aypara Hərəkatının fundamental prinsiplərinə, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 2010-cu ilə hesablanmış strareji planına müvafiq olaraq, fəlakət nəticəsində zərər çəkmişlərə yardım zamanı rol və öhdəliklərinə riayət etməklə FHHR sahəsində hökumətə yardımçıdır.

⇒ Fövqəladə Hallar Nazirliyi öz əsasnaməsinə uyğun olaraq Azərbaycan Respublikasında fövqəladə hallara hazırlıq və reaksiyaetmə (FHHR) sahəsində aparıcı rol oynayır.

## Məqsəd:

FHHR-in səmərəliliyini artırmaq, ölkədə fövqəladə hallar nəticəsində baş vermiş böhran və çətinliklər mövcud olduğu zaman əhaliyə dəymiş maddi və mənəvi ziyanların aradan qaldırılması ilə əlaqədar xüsusi tədbirləri həyata keçirmək və müvafiq yardımın göstərilməsi ilə bağlı əməkdaşlıq istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti:

⇒ fövqəladə hallar zamanı digər Tərəfin qərarı və razılığı əsasında zəruri ilkin yardımlar göstərir və bu sahədə fəaliyyətini nazirliklə əlaqəli şəkildə həyata keçirir;

⇒ fəlakətlər zamanı ərzaq, təchizat, içməli su təminatı ilə əlaqədar ehtimal edilə biləcək qıtlıq və ehtiyaclar aşkar olunduqda əhaliyə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanları daxilində (xarici donorlara müraciət əsasında alına biləcək vəsait, hökumət və ya Fövqəladə Hallar Nazirliyi tərəfindən ayrıla biləcək mümkün maliyyə vəsaiti hesabına) müvafiq və zəruri yardımların göstərilməsini təmin edir;

⇒ fəlakət zamanı digər Tərəflə razılaşdıraraq əhaliyə səhiyyə xidmətləri sahəsində birgə zəruri köməyin göstərilməsini həyata keçirir;
⇒ digər Tərəfin müvafiq səlahiyyətli işçi qrupunun tənzimləməsi yolu ilə əhaliyə humanitar yardımların paylanması üçün zəruri tədbirləri həyata keçirir;
⇒ digər Tərəfin tövsiyəsi ilə İlk yardım edilməsi, fövqəladə halların xəbərdar edilməsi və fəlakətlərin təsirinin yumşaldılması istiqamətləri üzrə əhalinin maarifləndirilməsi işində hökumətə köməklik göstərir;
⇒ fəlakətlər zamanı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin standartlarına uyğun olaraq vəziyyətin və ehtiyacların qiymətləndirilməsini həyata keçirir və qiymətləndirmənin nəticələri barədə Fövqəladə Hallar Nazirliyinə və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına məlumat verir;
⇒ fəlakət zamanı digər Tərəflə əvvəlcədən razılaşdırmaqla mövcud ehtiyat və imkanların, eləcə də çevik könüllü dəstələrin səfərbər edilməsini təşkil edir;
⇒ digər Tərəflə əvvəlcədən razılaşdırmaqla öz imkanları daxilində respublikanın bütün bölgələrində Beynəlxalq standartlara uyğun olaraq aşağıdakı işləri yerinə yetirir:
- fövqəladə hallar zamanı zərər çəkmişlərə ilk yardım xidmətlərinin göstərilməsi;
- fövqəladə hallar zamanı zərər çəkmişlərə ilkin humanitar yardım və mənəvi dəstəyin göstərilməsi;
- fövqəladə hallar zamanı axtarış-xilasetmə fəaliyyətlərinin həyata keçirilməsi;
- fövqəladə hallar zamanı qana və qan komponentlərinə kəskin ehtiyac yarandıqda müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə kütləvi qan donorluğunun və qan bankının yaradılmasının təşkilində iştirak etmək.

**Fövqəladə Hallar Nazirliyi:**

⇒ FHHR fəaliyyətlərini əlaqələndirir və təşkil edir, o cümlədən, bu sahəyə bilavasitə rəhbərlik edir;
⇒ respublikada mütəxəssislərin hazırlığı, ixtisaslarının artırılması, peşəyönümlü səviyyələrinin yüksəldilməsi məqsədilə kursların, seminarların və təlim-məşqlərin keçirilməsinə digər Tərəfi cəlb edir;
⇒ beynəlxalq təşkilatların proqramları çərçivəsində və tövsiyələri ilə həyata keçirilən layihələrə digər Tərəfi cəlb edir;
⇒ müvafiq komissiyaların, eləcə də bölgə komissiyalarının işində digər Tərəfin nümayəndələrinin iştirakına şərait yaradır;
⇒ fövqəladə hallar zamanı yardım göstərilməsi məqsədilə digər Tərəfə zəruri təlimatlar və tapşırıqlar verir;
⇒ Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.07.2004 tarixli, 135 s nömrəli sərəncamına uyğun olaraq Cəmiyyətin anbarlarla təmin olunmasını davam etdirir;

**Razılaşma:**

⇒ bu Memorandum imzalandığı gündən qüvvəyə minir.

⇒ Memorandum Tərəflərdən birinin təşəbbüsü ilə qarşı tərəfi 1 (bir) ay əvvəlcədən xəbərdarlıq etməklə ləğv oluna bilər.

⇒ bu Memoranduma tərəflərin təşəbbüsü və razılığı ilə dəyişikliklər və ya əlavələr edilə bilər.

| AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ | AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ |
| --- | --- |
| Prezident<br>Novruz Aslanov | Nazir<br>Kəmaləddin Heydərov |
| «_//_»____//____2006-cı il | «_//_»____//____2006-cı il |